# DOSTLUQ VƏ TƏRƏFDAŞLIQ NÜMUNƏSİ



## Azərbaycan ilə Belarus arasında diplomatik münasibətlərin qurulmasından 32 il ötür

***1993**-cü il iyunun 11-də postsovet məkanında müstəqillik əldə etmiş ölkələr olaraq Azərbaycan və Belarus arasında rəsmi diplomatik münasibətlər quruldu, bununla da dostluq və əməkdaşlıq əlaqələrinin möhkəm təməli qoyuldu. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin uzaqgörən rəhbərliyi və siyasi iradəsi nəticəsində ikitərəfli dialoqun möhkəm əsasları formalaşdı. O vaxtdan bəri Azərbaycan-Belarus münasibətləri dostluq, qarşılıqlı hörmət və etimada əsaslanan ənənələr üzərində ardıcıl şəkildə genişlənmiş və strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. Bu gün Prezident İlham Əliyev və Prezident Aleksandr Lukaşenko tərəfindən nümayiş etdirilən səmimi və etibarlı münasibətlər ikitərəfli əlaqələrin inkişafında mühüm hərəkətverici qüvvəyə çevrilmişdir.*

32 il təkcə tarixi əks etdirən bir rəqəm deyil. Bu, əməkdaşlıq çərçivəsində əldə olunmuş nəticələrə nəzər salmaq və gələcək üçün yeni prioritetləri müəyyənləşdirmək üçün dəyərli fürsətdir. Üç onillik ərzində Azərbaycan və Belarus fəal siyasi dialoq qurmuş, beynəlxalq arenada konstruktiv əməkdaşlıq etmiş və iqtisadiyyatdan humanitar sahələrə qədər bir çox istiqamətlərdə əhəmiyyətli uğurlar əldə etmişdir. Bütün bu müvəffəqiyyətlər hər iki ölkənin xalqların rifahı naminə ənənəvi dostluq əlaqələrini və strateji əməkdaşlığı daha da möhkəmləndirmək əzmində olduğunu bir daha təsdiqləyir.

Azərbaycan-Belarus münasibətləri ən yüksək səviyyədə etimada və dialoqa əsaslanır. Prezidentlər rəsmi səfərlər və ya beynəlxalq sammitlər çərçivəsində mütəmadi olaraq görüşürlər. Bu təmaslar xüsusi səmimiyyəti ilə fərqlənir, Minsk Azərbaycanı dost, qardaş ölkə kimi qəbul edir. Öz növbəsində, rəsmi Bakı Aleksandr Lukaşenkonun ikitərəfli münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəltməkdəki şəxsi töhfəsini yüksək dəyərləndirir. Dövlət başçılarının son illərdə qarşılıqlı səfərləri dialoqun strateji xarakterini nümayiş etdirir. Belə ki, ötən ilin may ayında Aleksandr Lukaşenko Azərbaycana dövlət səfərinə gəlmiş və səfər çərçivəsində liderlər ikitərəfli münasibətlərin dinamikasını ətraflı təhlil edərək gələcək inkişaf istiqamətlərini müəyyənləşdirmişlər. Prezidentlər həmçinin Füzuli rayonuna səfər edərək azad edilmiş ərazilərdə bərpa prosesləri ilə yerində tanış olmuşlar. Bundan əvvəl isə Prezident İlham Əliyev Minskə rəsmi səfərə getmiş və böyük hörmət və ehtiramla qarşılanmışdır. Həmin vaxt Prezident Lukaşenko xüsusi vurğulamışdı ki, xalqlarımız arasında heç bir qapalı mövzu yoxdur: ölkələrimiz bir dövlətin tərkibində ortaq yol keçmiş və dostluğun tarixi kökləri çox qədimlərə qədər uzanır. Belə yüksək səviyyəli görüşlər siyasi və hərbi-texniki sahələr də daxil olmaqla bütün əməkdaşlıq istiqamətlərinə aydınlıq gətirir və tərəfdaşlığın strateji istiqamətini müəyyənləşdirir.



Azərbaycan və Belarus beynəlxalq arenada bir-birinə dəstək göstərərək nümunəvi həmrəylik örnəyi nümayiş etdirirlər. Minsk hər zaman Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü tanımış, Azərbaycan-Ermənistan münaqişəsinin nizamlanması məsələsində Bakının ədalətli mövqeyini açıq şəkildə dəstəkləmişdir. Azərbaycan da Belarusun daxili işlərinə müdaxilədən çəkinmək prinsipinə ciddi şəkildə əməl edir və müxtəlif beynəlxalq platformalarda Minskə dəstək nümayiş etdirir. BMT, Qoşulmama Hərəkatı, ATƏT və digər beynəlxalq təşkilatlarda ölkələrimiz əsas qlobal məsələlər üzrə yaxın mövqeləri bölüşərək konstruktiv əməkdaşlıq edir. Azərbaycan ilə Belarus arasında Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlıq xüsusilə qeyd olunmalıdır. 2019-2023-cü illər ərzində Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi təşkilata yeni dinamika gətirmişdir. Rəsmi Minskdən verilən açıqlamalarda haqlı olaraq vurğulanır ki, Qoşulmama Hərəkatı məhz Azərbaycanın sayəsində "güclü bir səsə" çevrilmişdir. Belarus bu təşkilatın rəsmi üzvü olmasa da, Bakının təşəbbüsü olan bir sıra mühüm layihələrdə, o cümlədən 2023-cü ildə keçirilmiş Qoşulmama Hərəkatının COVID-19 pandemiyasına qarşı cavab tədbirləri üzrə Əlaqələndirmə Qrupunun sammitində fəal iştirak etmişdir. Beynəlxalq arenadakı bu cür həmrəylik hər iki ölkənin nüfuzunu gücləndirir və qarşılıqlı münasibətlərin dərin strateji xarakter daşıdığını bir daha təsdiqləyir.

Çağdaş dövrümüzdə humanitar əlaqələr də mühüm əhəmiyyət kəsb edir. Mədəni mübadilələr getdikcə genişlənir, diplomatik əlaqələrin 30 illiyi münasibətilə tərəflər Azərbaycan Mədəniyyəti Günlərinin Belarusda və Belarus Mədəniyyəti Günlərinin Azərbaycanda keçirilməsi barədə razılığa gəliblər. 2023-cü ildə Minsk şəhərində ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş böyük konsert böyük uğurla təşkil edilmişdir. Həm Azərbaycanda, həm də Belarusda fəaliyyət göstərən dostluq cəmiyyətləri və diaspor təşkilatları xalqlar arasında yaxınlaşmanı təşviq edir.

Gənclər də bir-birinin mədəniyyətini tanımağa böyük maraq göstərirlər: yüzlərlə azərbaycanlı tələbə təhsil üçün Belarus ali məktəblərini seçir, belaruslu tələbələr həvəslə Azərbaycanın universitetlərinə həvəslə üz tuturlar. Təhsil sferasında bu cür əlaqələrin ququlması gələcək nəsillər arasında dostluq münasibətlərinin möhkəm əsasını formalaşdırır. Eyni zamanda, akademik və elmi mərkəzlər arasında tərəfdaşlıq əlaqələri dəstəklənir, tələbə mübadiləsi və təcrübə proqramları həyata keçirilir. Beləliklə, əməkdaşlığın humanitar ölçüsü mədəniyyət və təhsilə qədər - Azərbaycan ilə Belarus arasında münasibətləri zənginləşdirir, xüsusi mənəvi dəyər qazandırır.

Azərbaycan ilə Belarus arasında iqtisadi əməkdaşlıq hər iki dövlətə böyük fayda gətirir. Ölkələr arasında ticarət, investisiya və birgə layihələr sahəsində səmərəli model formalaşdırılmışdır. Son illərdə ikitərəfli ticarət dövriyyəsi sabit artım nümayiş etdirmiş və bu gün artıq illik 400 milyon ABŞ dollarına yaxınlaşmışdır. Hər iki ölkənin liderləri ticarət həcminin daha da artırılmasını vacib hesab edirlər, artıq yaxın perspektivdə bu göstəricinin 500 milyon, gələcəkdə isə 1 milyard dollara qədər yüksəldilməsi ilə bağlı planlar müzakirə olunur. Belə bir məqsədin real olduğu aydındır, çünki tərəflərin iqtisadi strukturları bir-birini tamamlayır: Belarusdan Azərbaycana maşınlar, avadanlıqlar, kənd təsərrüfatı və qida sənayesi məhsulları ixrac olunur, Azərbaycandan isə neft, neft məhsulları, kimya sənayesi və digər məhsullar Belarus bazarına daxil olur. İqtisadi əməkdaşlıq hökumətlərarası komissiyalar və biznes forumları sistemi ilə dəstəklənir. 2023-cü ilin may ayında keçirilmiş 13-cü Birgə Hökumətlərarası Komissiyanın iclasında ticari-iqtisadi sahədə əlaqələrin genişləndirilməsi istiqamətində mühüm qərarlar qəbul edilmişdir. Bu mexanizmlər konkret addımların müəyyənləşdirilməsinə, qarşılıqlı ticarətin genişlənməsinə maneə törədən baryerlərin aradan qaldırılmasına xidmət edir. Nəticədə, xarici iqtisadi çətinliklərə baxmayaraq, tərəflər iqtisadi inteqrasiyanı daha da dərinləşdirmişlər. Belarus tərəfinin fikrincə, dövlətlərimiz hər zaman və bu gün də bütün istiqamətlər üzrə etibarlı tərəfdaş olaraq qalmaqdadır. Minsk-Bakı, Qomel-Gəncə və s. formatlarında mütəmadi keçirilən biznes forumları və sərgilər aqrar-sənaye kompleksindən informasiya texnologiyalarına qədər yeni inkişaf istiqamətlərinin müəyyənləşdirilməsinə imkan verir. Tərəflərin birgə səyləri ilə investisiya əməkdaşlığı genişləndirilir: texnikanın yığılması üzrə layihələr həyata keçirilir, ticarət evləri açılır, bank-maliyyə sahəsində təcrübə mübadiləsi aparılır. Bütün bu təşəbbüslər qarşılıqlı faydaya əsaslanan iqtisadi əlaqələrin daha da çiçəklənməsi üçün gözəl fürsətdir.

Qeyd olunmalıdır ki, Azərbaycan ilə Belarus arasında əməkdaşlıq ənənəvi sahələrlə yanaşı, yüksək texnologiyalarla bağlı digər istiqamətləri də əhatə edir. Belarusun Baş nazirinin Bakıya son səfəri zamanı lift avadanlıqları, məişət texnikası üzrə birgə istehsal müəssisələrinin yaradılması, eləcə də aqrar-sənaye sektorunda - heyvandarlıq, süd sənayesi, ət emalı və quşçuluq sahələrində əməkdaşlıq məsələləri müzakirə edilmişdir. Tərəflər, həmçinin Belarus texnikası üçün Azərbaycanın müxtəlif regionlarında servis mərkəzlərinin yaradılmasının vacibliyini vurğulamışlar. Bu mərkəzlər texnikanın fasiləsiz işləməsini və texniki xidmət təmin edəcək. Belə addımlar sənaye inteqrasiyasını gücləndirməklə yanaşı, texnologiyaların ötürülməsinə və yerli mütəxəssislərin ixtisas səviyyəsinin artırılmasına da kömək edir.

İnformasiya-kommunikasiya texnologiyaları sahəsində də əməkdaşlıq üçün mühüm perspektivlər mövcuddur. 2009-cu ildə Azərbaycan Rabitə Nazirliyi ilə Belarus Yüksək Texnologiyalar Parkı arasında İT sahəsində əməkdaşlığa dair memorandum imzalanmışdır. Bu gün Belarusun İT parklarının inkişafı üzrə təcrübəsi Azərbaycan üçün böyük maraq doğurur. Beləliklə, iki ölkə arasında innovasiyalar və yüksək texnologiyalar istiqamətinə yönələn əməkdaşlıq strateji tərəfdaşlığa innovativ və müasir məzmun gətirir.

İkitərəfli münasibətlərin çoxşaxəliliyinin əsasını isə regionlar və şəhərlər səviyyəsində möhkəmlənən əlaqələr təşkil edir. İki ölkənin vilayətləri və şəhərləri arasında birbaşa əməkdaşlıq dövlətlərarası dialoqu tamamlayaraq vətəndaşlar üçün daha konkret və hiss olunacaq bir formaya çevirir. Bu istiqamətdə mühüm bir addım atılmışdır. 2024-cü ilin may ayında Azərbaycan paytaxtı Bakı ilə Belarusun paytaxtı Minsk arasında qardaşlaşmış şəhər münasibətlərinin qurulmasına dair memorandum imzalanmışdır. Bu rəmzi akt iki paytaxt arasında şəhər təsərrüfatı, mədəniyyət və təhsil sahələrində birbaşa təcrübə mübadiləsi üçün yeni imkanlar açır. Bundan əlavə, digər şəhərlər arasında da qardaşlıq əlaqələrinin qurulmasına dair razılaşmalar imzalanmışdır. Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncə Belarusun aparıcı regional mərkəzlərindən biri Qomel ilə, Azərbaycanın gözəl və turistik şəhəri Qəbələ isə qədim Belarus şəhəri Qrodno ilə qardaşlaşmışdır.

Ümumilikdə, diplomatik münasibətlərin qurulmasından otuz iki il sonra Azərbaycan və Belarus özlərini dostluq, etimad və qarşılıqlı dəstəyə əsaslanan strateji tərəfdaşlar kimi təsdiqləyir. 1993-cü ildə səfirliklərin yaradılması ilə başlayan bu yol genişmiqyaslı layihələrə gətirib çıxarmış və əməkdaşlığın nə qədər davamlı və səmərəli olduğunu sübut etmişdir. Hazırda ikitərəfli münasibətlər fəal siyasi dialoq, xarici siyasət mövqelərinin sıx koordinasiyası, artan iqtisadi göstəricilər və zəngin humanitar əlaqələr palitrası ilə səciyyələnir.

Hər iki ölkənin rəhbərliyi müəyyən edilmiş məqsədlərin həyata keçirilməsi üçün istər ticarət dövriyyəsinin yeni səviyyələrə çatdırılması, istərsə də birgə yüksək texnologiyalı istehsal müəssisələrinin yaradılması və beynəlxalq arenada qarşılıqlı dəstəyin davam etdirilməsi sahəsində yorulmadan çalışır. Qarşıda isə yeni əməkdaşlıq üfüqləri açılır: COP29-dan sonra "yaşıl gündəlik" üzrə birgə fəaliyyət, regionlararası mübadilə planlarının reallaşdırılması və çoxtərəfli diplomatiya platformaları çərçivəsində yeni təşəbbüslərin həyata keçirilməsi önəmlidir. Azərbaycan və Belarus onilliklər ərzində formalaşmış qardaşlıq təməlindən güc alaraq yeni uğurlara doğru irəliləyir.

**Emin QASIMOV,**
**"Respublika".**